

# ABŞ-Azərbaycan münasibətlərində yeni mərhələnin başlanğıcı

## Bu uğur Azərbaycan Prezidentinin müstəqil siyasət kursunun məntiqi nəticəsidir

Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına səfəri, Nüvə Təhlükəsizliyi Sammitində iştirakı və ölkənin rəsmi şəxsləri ilə keçirdiyi görüşlər bu fövqəldövlətin Azərbaycana qarşı olan münasibətini bir daha nümayiş etdirmiş oldu. Əminliklə söyləmək olar ki, ABŞ Azərbaycanı hazırda mühüm geosiyasi məkan kimi regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq dövləti, ən perspektivli tərəfdaş hesab edir.

Günün müzakirə mövzusuna çevrilən bu məsələ ilə bağlı ekspertlər, siyasətçilər birmənalı fikirlər səsləndirirlər. Siyasi ekspertlər düşünürlər ki, Prezident İlham Əliyevin ABŞ-a dəvəti və bu ölkənin rəsmi şəxsləri ilə keçirdiyi görüşlər Azərbaycanın dünyada artan nüfuzuna və beynəlxalq münasibətlər sistemində yerinə verdiyi əhəmiyyətlə yanaşı, həm də iki ölkə arasında inkişaf edən dostluq və tərəfdaşlığın təzahürüdür.

Yeni Azərbaycan Partiyasının icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri **Siyavuş Novruzov** deyir ki, Azərbaycan Prezidenti İlham Əliyevin Prezident Barak Obamanın dəvəti ilə IV Nüvə Təhlükəsizliyi Sammitində iştirak etməsi və ABŞ-da keçirdiyi ikitərəfli görüşlər iki ölkə arasında yeni mərhələnin başlanğıcıdır. Prezident İlham Əliyev ilə ABŞ dövlət katibi arasında ikitərəfli görüş xüsusi qeyd edilməlidir. Çünki Prezident İlham Əliyev və dövlət katibi Con Kerri tərəfindən verilən bəyanatlarda çox mühüm məsələlər vurğulandı: "Azərbaycan ilə ABŞ arasındakı strateji əməkdaşlıq, Azərbaycanın beynəlxalq antiterror əməliyyatlarında fəal iştirakı, Avropanın enerji təhlükəsizliyindəki rolu dövlət katibi tərəfindən qeyd edildi və bildirildi ki, Azərbaycan ilə ABŞ arasında çox yüksək xətlə inkişaf edən münasibətlər var. Həmçinin Prezident İlham Əliyevin ayrı-ayrı rəsmi şəxslərlə, ictimaiyyət nümayəndələri, lobbi təşkilatlarının nümayəndələri ilə görüşləri bir daha Azərbaycanın nə qədər inkişaf etdiyini və dünyada etibarlı bir tərəfdaş olduğunu sübut edir".

Komitə sədri hesab edir ki, Prezident İlham Əliyevin bu səfəri çox uğurlu səfərlərdən biridir: "Bu səfər ABŞ ilə Azərbaycan arasında əməkdaşlıqda yeni bir mərhələnin başlanğıcıdır və bu mərhələ çox uğurla davam edəcək".

Milli Məclisin deputatı, professor **Rafiq Məmmədhəsənov** deyir ki, Prezident İlham Əliyevin düşünülmüş, yeni dünya sisteminin müasir çağırışlarına cavab verən siyasi kursu Azərbaycanı regionun lider dövlətinə çevirməklə yanaşı, beynəlxalq aləmdə ölkəmizi etibarlı tərəfdaş kimi tanıtmışdır. Bu gün ölkəmiz mühüm geosiyasi məkan kimi regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Bu baxımdan Prezident İlham Əliyevin Vaşinqtonda ABŞ dövlət katibi Con Kerri ilə apardığı müzakirələr ikitərəfli əlaqələrdə yeni mərhələ kimi qiymətləndirilir. Deputatın fikrincə, dövlət başçısının bu səfəri ABŞ-Azərbaycan münasibətlərinin dərinləşməsinə çox böyük təsir edəcək. 50-yə yaxın ölkənin dövlət və hökumət başçılarının iştirak etdiyi həmin sammitdə Azərbaycanın yer alması ölkəmizin artan siyasi və diplomatik nüfuzunun göstəricisidir: "Prezident İlham Əliyevin ABŞ-a səfəri Azərbaycan diplomatiya tarixinin mühüm səhifələrindən biridir. Müzakirələr iki ölkə arasında münasibətlərin böyük potensialı olduğunu bir daha təsdiq edir. Prezident İlham Əliyevin dövlət katibi Con Kerri ilə görüşü istər regional münaqişələrin həllinə, istərsə də meqalayihələrin həyata keçirilməsinə mühüm töhfə verə, əsasən də Dağlıq Qarabağ münaqişəsinin həllinə təkan ola bilər. Dövlət başçısının söylədiyi kimi, ABŞ-Azərbaycan münasibətlərinin artıq 25 illik tarixi var. Bu münasibətlər həmişə sıx, səmimi olmuşdur, indi isə strateji əhəmiyyət kəsb edən münasibətlər səviyyəsinə çatmışdır. İki dövlət arasında inkişaf etməkdə olan iqtisadi əməkdaşlıq aparılır. ABŞ şirkətləri Azərbaycan iqtisadiyyatına 10 milyard dollardan artıq sərmayə yatırmışdır. Bu da iqtisadi əməkdaşlığın, həmçinin ölkəmizin inkişafının yaxşı göstəricisidir".







R.Məmmədhəsənovun fikrincə, bu səfərin digər önəmli tərəfi odur ki, antiazərbaycançı şəbəkənin və erməni lobbisinin ABŞ-Azərbaycan əlaqələrinin pozulması istiqamətində həyata keçirmək istədikləri məkrli niyyətləri tamamilə puç oldu. Tərəflər arasında aparılan danışıqlarda ən mühüm məsələlərə toxunulmuşdur. Prezident İlham Əliyev Azərbaycanda iqtisadi sahədə görülən işlərdən, əsas iqtisadi prioritetlər - kənd təsərrüfatı, informasiya-kommunikasiya texnologiyaları, vergi və gömrük, infrastruktur sahələrində həyata keçirilən islahatlardan danışmış, iqtisadi inkişafın qanunvericilik proseslərində Azərbaycanın beynəlxalq təşkilatlar ilə sıx əməkdaşlıq etdiyini diqqətə çatdırmışdır.

Con Kerri ilə görüşdə Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təminində rolu qeyd edilmiş, ABŞ-ın bu işdə ölkəmizə verdiyi dəstək yüksək qiymətləndirilmiş və "Cənub qaz dəhlizi" layihəsinin önəmi vurğulanmışdır. Prezident İlham Əliyev dünyada neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, Azərbaycanda əsas iqtisadi parametrlərin qorunub saxlanıldığını və iqtisadiyyatın yaxşı vəziyyətdə olduğunu bildirmiş, neftin qiymətinin düşməsi fonunda Azərbaycanda büdcə sisteminin möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atıldığını diqqətə çatdırmışdır.

Deputatın fikrincə, dövlət başçısının ən mühüm görüşlərindən biri də ABŞ-ın vitse-prezidenti Co Baydenlə olmuşdur. Bu görüşdə Co Bayden bildirmişdir ki, ABŞ ölkəmizin ərazi bütövlüyü və dövlət suverenliyini qətiyyətlə dəstəkləyir. Bu da işğalçı Ermənistana, erməni lobbisinə böyük zərbədir.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü **Rasim Musabəyov** isə açıqlamasında dedi ki, Azərbaycan Prezidenti İlham Əliyev Vaşinqtonda ABŞ administrasiyasının aparıcı simaları, siyasətçilər və işgüzar dairələrlə intensiv görüşlər keçirdiyi halda, Ermənistan prezidentini ABŞ-da heç kim sezmir.

Deputatın sözlərinə görə, hələ 1 ay öncə Ermənistan KİV-i və onları təkrarlayan Azərbaycanın bəzi qərəzli müxalifətçiləri ABŞ-da Azərbaycan üçün "təcrid olunma" məsələsi ilə bağlı sürpriz hazırlandığını iddia edirdilər. Ancaq keçirilən görüşlərdən sonra həmişə olduğu kimi təəccüb içində səsləri çıxmır: "Axı, reallıqda buna yaxın olan, ümumiyyətlə, heç nə yoxdur. Prezident İlham Əliyev nüvə təhlükəsizliyi problemləri üzrə sammitdə iştirakı ilə bağlı ABŞ-a səfəri çərçivəsində dövlət katibi Con Kerri, vitse-prezident Co Bayden, ticarət naziri Penni Pritzker, bir sıra konqresmenlərlə, nüfuzlu yəhudi təşkilatlarının rəhbərləri, işgüzar dairələrin nüfuzlu nümayəndələri, Karneqi Fondunun prezidenti Uilyam Berns və başqaları ilə görüşlər keçirib. Bu görüşlər davam edir. Serj Sarkisyana gəlincə, erməni rəsmiləri və hətta onun müxalifətçi tənqidçiləri ağzına su alıb susurlar. Ermənistan prezidentinin ABŞ-da mövcudluğu hiss olunmur. Sarkisyanın mətbuat xidməti onun heç bir ciddi görüşü barədə məlumat verməyib. Yalnız onun martın 30-da Harvard Universitetinin Kennedi adına İdarəetmə Məktəbində mühazirə oxuduğu haqqında qısa məlumat yayılıb. Bu, gülüş doğurur.

Deputatın fikrincə, ingilis dilini bilmədiyindən o, bu mühazirədə öz tərcüməçisi vasitəsilə Azərbaycan haqqında sayıqlamalarını çatdırıb. Hərçənd aydındır ki, özü kiminsə forpostu olan, dəyərsiz iqtisadiyyata və dalan coğrafiyasına malik ölkənin əyalət səviyyəli prezidentinin amerikan intellektuallarına mahiyyətcə deməyə də heç bir faktı yoxdur.

R.Musabəyov axırda qeyd etdi ki, ABŞ yalnız Cənubi Qafqazın lider dövləti olan Azərbaycanla hərtərəfli münasibətlərin inkişafında maraqlıdır.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*